

## Firəngiz ULUTÜRK

Azərbaycan ictimaiyyətinə ağır itki üz vermişdir. Xalq şairi Xəlil Rza Ulutürkün həyat yoldaşı, şəhid Milli Qəhrəman Təbriz Xəlilbəylinin anası, yazıçı-publisist Firəngiz xanım Ulutürk vəfat etmişdir.

Firəngiz Böyükağa qızı Xəlilova 1932-ci il dekabrın 31-də Bakıda anadan olmuşdur. İlk təhsilini 132 saylı məktəbdə almış, sonra təhsilini 190 saylı məktəbdə davam etdirmişdir. 1951-ci ildə Bakı Dövlət Universitetinin tarix fakültəsinə daxil olmuş, 1956-cı ildə ali təhsilini tamamlamışdır. 1957-ci ildə Azərnəşrdə kadrlar şöbəsinin rəisi vəzifəsində əmək fəaliyyətinə başlamışdır. 1969-1971-ci illərdə indiki Neft və Sənaye Universitetində laborant, 1971-1997-ci illərdə kabinə müdiri, müəllim, 1997-2005-ci illərdə baş müəllim vəzifəsində işləmişdir. İstiqlal şairimizin vəfatından sonra Firəngiz xanım yerdə qalan ömrünü həyat yoldaşının elmi-ədəbi irsinin toplanmasına, tərtibinə, çap olunmasına və təbliğinə həsr etmişdir. "Kədərimlə qol-boyun" xatirə kitabını Xəlil Rza Ulutürkə həsr etmiş, mətbuatda, kütləvi informasiya vasitələrində ölməz şairin keçdiyi şərəfli yolu, istiqlal hərəkatındakı rolunu yorulmadan işıqlandırmışdır. Firəngiz xanım Ulutürkün simasında xalqımız əsl Azərbaycan qadınını, vəfalı həyat yoldaşı, qəhrəman anasını itirdi.

Firəngiz xanım Ulutürkün işıqlı xatirəsi xalqımızın qəlbində yaşayacaq.

**Allah rəhmət eləsin!**

*Azərbaycan Yazıçılar Birliyi*